**Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF)**
**Himayəçilər Şurası sədrinin müavini,**
**Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB)**
**İdarə Heyətinin sədri Ahmet Erentokun**

**18 noyabr 2008-ci ildə**
**Bakı Dövlət Universitetində təşkil edilən konfransda**

**ÇIXIŞI**

**Hörmətli xanımlar və cənablar,**
**Hörmətli konfrans iştirakçıları,**
**Hörmətli tələbələr,**

İlk öncə icazənizlə bu cür əhəmiyyətli konfransın keçirilməsinə şərait yaratdığı üçün Bakı Dövlət Universitetinin rəhbərliyinə, şəxsən Universitetin rektoru cənab Abel Məhərrəmova dərin minnətdarlığımı bildirirəm. açılışı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən edilmiş Azərbaycanın aparıcı ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin bu yeni və gözəl tədris binasında peşəkar mütəxəssislərin və alimlərin yetişəcəyinə əmin olduğumu diqqətinizə çatdırıram.

Erməni məsələsi ölkələrimizin birgə fəaliyyətini zəruri edən önəmli problem olaraq qarşımıza çıxmaqdadır. Bu problem başda dövlət və hökumət qurumları olmaqla, təhsil institutları, qeyri-hökumət təşkilatları və iş adamlarının birlikdə hərəkət etməsini və müəyyən strategiya formalaşdırılmasını tələb edir. Ermənilərin planları həyata keçəcəyi təqdirdə hazırda malik olduğumuz strateji üstünlüklərimiz heçə enəcək, Azərbaycan və Türkiyə arasında mövcud olan birbaşa sərhəd tamamilə yox ediləcək, hər iki ölkənin əlaqələrinə və onların regionda malik olduqları geosiyasi

nüfuza ciddi zərbə vurulacaqdır ki, bu da öz növbəsində ölkələrimizin regionda enerji resurslarına nəzarət imkanlarının zəifləməsinə gətirib çıxaracaqdır.

Digər tərəfdən, erməni xalqı da başa düşməlidir ki, erməni lobbisinin fəaliyyəti ilk növbədə Ermənistan ərazisində yaşayan əhaliyə mənfi təsir göstərir. Bu ölkə regionda həyata keçirilən iqtisadi layihələrdən kənarda qalır, öz iqtisadiyyatını inkişaf etdirmək üçün vacib olan resurs mənbələrinə çıxışı məhdudlaşır. Nəticədə Ermənistanda yaşayan əhalinin rifah səviyyəsi günü-gündən aşağı düşür ki, bu da özünü Ermənistanı birdəfəlik tərk edən əhalinin sayında açıq surətdə göstərir. Məhz bu nöqtədə ölkələrimiz siyasi, iqtisadi və sosial-mədəni üstünlüklərini ortaya qoyaraq ortaq strategiya formalaşdırmalıdırlar. Bir millət, iki dövlət ideyasını həyata keçirmək üçün birgə fəaliyyət göstərməklə, yaxşı nəticə əldə etmək olar. Bunun üçün elm dünyası, qeyri-hökumət təşkilatları, biznes dairələri və cəmiyyətin digər təbəqələrinin təmsilçilərini bir araya gətirib problemləri minimuma endirmək lazımdır. Təhsil və maarifləndirmə bu baxımdan çox önəmlidir. Digər çatışmazlığımız və prioritet sahələrdən biri isə təbliğat və ictimaiyyətlə əlaqələrdir.

Fikrimizcə ictimaiyyətin bütün təbəqələri, xüsusilə də tələbələr erməni məsələsi barəsində məlumatlı olmalıdırlar. Çox önəmlidir ki, onlar düşdükləri mühitdə laqeyd qalmasınlar, verilən sualları cavablandıra bilsinlər. Eyni sözləri xaricdə yaşayan soydaşlarımız və xaricə tez-tez səfərlər edən iş adamlarına da aiddir. Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondu – ATAF da məhz bu məqsədlə qurulmuşdur.

Prezident İlham Əliyev söyləmişdir ki, bir millətin iki dövləti olsa da iki diasporası olmamalıdır. Buna görə də diasporalarımız birgə hərəkət etməlidir. Sözsüz ki, hər iki dövlət bu sahədə xeyli iş görmüşdür. Amma vətəndaş cəmiyyətinin üzərinə də çox iş düşür. Odur ki, iki ölkənin bu məsələ ilə məşğul olan ayrı-ayrı QHT-lərini deyil, bir QHT (ATAF) yaratmışıq.

Fond Azərbaycan və Türkiyə tarixinin araşdırılması, ortaq problemlərin və onların həlli yollarının müəyyən edilməsi, regionda xalqların sülh, əmin-amanlıq mühitində yaşamalarına və iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə, bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə vermək istiqamətində fəaliyyət göstərir.

ATAF artıq Azərbaycan və Türkiyə ilə yanaşı, digər ölkələrdə də təşkilatlanmağa başlayıb. Artıq Vaşinqtonda ATAF-ın təmsilçiliyini həyata keçirəcək Azərbaycan Türkiyə Amerika Fondu yaradılmışdır. Önümüzdəki ildə Avropa və Rusiyada da təşkilatlanmağı məqsəd kimi qarşıya qoymuşuq. Xaricdəki təmsilçiliklərin əsas vəzifəsi erməni məsələsi sahəsində yerləşdikləri dövlətlərin hökumətləri, qeyri-hökumət təşkilatları, universitetləri və cəmiyyətin digər maraqlı təbəqələri ilə işləmək olacaqdır. Həmçinin, xaricdə yaşayan soydaşlarımızın bu məsələ ilə bağlı maarifləndirilməsi də ATAF-ın təmsilçilikləri vasitəsilə həyata keçiriləcəkdir.

Fond erməni probleminin tərəfsiz və elmi baxımdan dəyərləndirilməsi və sənədlərə əsaslanan gerçəklərin ortaya çıxarılması, bölgə xalqları arasında anlaşmazlıqları və əməkdaşlığa mane olan problemləri aradan qaldırmaq baxımından mühüm rol oynaya bilər.

Bu baxımdan biz Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun müsbət nəticə əldə edəcəyinə əminik və hər bir maraqlı şəxsi ATAF layihəsində yaxından iştirak etməyə, bütün türk dünyasına qarşı yönəlmiş erməni lobbisi ilə birgə mübarizə aparmağa dəvət edirik.

**Diqqətinizə görə sağ olun!**